**Tarix və onun problemləri, № 4 2013**

**AKIF MARIFLI**
***Tarix üzrə fəlsəfə doktoru***
**E-mail: akif.marifli@gmail.com**

# TERRORIZM ANLAYIŞININ TƏSBITI VƏ AZƏRBAYCAN NÜMUNƏSI

*Açar sözlər:* terror, beynəlxalq əməkdaşlıq, milli maraqlar, gücdən istifadə
*Ключевые слова:* террор, международных отношений, национальные интересы, использование силы
*Keywords:* terror, international relations, national interests, usage of force

*Məqalədə terrorizm anlayışının təsbiti və Azərbaycan nümunəsindən söz açılmaqdadır. Burada terror, terrorçu və terrorizm anlayışlarına toxunulur. Onların vahid beynəlxalq təsbitinin olmaması bir problem kimi işıqlandırılır. Habelə məqalədə Azərbaycan Respublikasının bu sahədə həm hüquqi, həm də praktiki nailiyyətlərə sahib olması diqqət mərkəzinə gətirilir.*

Uzun bir keçmişə sahib olmaqla birlikdə 1960-cı illərdən etibarən beynəlxalq ictimaiyyətin dəyişməz gündəm məsələlərindən biri halına gələn terrorizm, son illər öz inkişafı və yeni formaları baxımından beynəlxalq sülh və təhlükəsizliyə qarşı güclü bir təhdidə çevrilmişdir. Ciddi şəkildə güclənən terrorçu fəaliyyətlər dünyanın bir çox bölgəsində hökumət və digər ictimai obyektlərin partladılması, sərnişin təyyarə və gəmilərinin qaçırılması, diplomatik nümayəndəliklərə, hava limanlarına, ticarət mərkəzlərinə, metro və qatar stansiyalarına qarşı hücumların təşkil edilməsi, hökumət rəsmiləri, diplomatlar və iş adamlarının qaçırılması və ya bu kəslərin sui-qəsdə uğraması kimi dəyişik şəkillərdə özünü göstərməkdədir. Terrorizm artıq beynəlxalq münasibətlərin real təsirə malik olan bir ünsürü halına gəlmişdir.

Müasir dövrdə terrorizm istər xüsusiyyəti, istərsə də miqyası etibarilə beynəlxalq əməkdaşlıq olmadan dövlətlərin öhdəsindən gələ biləcəyi bir problem olmaqdan çıxmışdır. Terrorizm haqqında ümumi qəbul edilmiş nizamlanma çərçivəsinin olmaması və tədqiqatçıların terrorizm fenomenini fərqli şəkillərdə qiymətləndirmələri səbəbi ilə dəyişik görüşlərin irəli sürüldüyü və terrorizmin nə olduğu mövzusunda, yaxud terrorizmi digər ona bənzər cinayətlərdən ayırd etmə nöqtəsində əhəmiyyətli bir ortaq məxrəcə gəlindiyi görülməməkdədir. Digər tərəfdən BMT çərçivəsində icra edilən işlərdə və ya imzalanan çoxtərəfli beynəlxalq müqavilələrdə tək və əhatəli bir təsbitin müəyyənləşdirilməsinə nail olunmamışdır. Terrorizm anlayışı artıq o qədər geniş və naməlum bir hala gəlmişdir ki, bəzən çox fərqli hərəkətlər belə terrorizm anlayışı daxilində düşünülməkdədir.

Beynəlxalq sahədə mövcud problemlərin həll edilə bilməsi üçün əvvəlcə problem təşkil edən anlayışların aydınlaşdırılması lazımdır. Varlığı, səbəbləri və ölçüləri mövzusunda fikir birliyinin meydana gəlmədiyi bir problemin həllinə nail olunması olduqca çətindir. Belə bir şəraitdə dövlətlər problemə öz milli mənfəətləri istiqamətində həll axtaracaq, bu da bir-biriylə ziddiyyət təşkil edən yanaşmaların ortaya çıxmasına səbəb olacaqdır. Terrorizmin təyin olunması problemini əsas alaraq hüquqi çərçivənin yaradılmasını təmin etməyi məqsəd qoyan bu işdə prioritetli olaraq terror və terrorizm anlayışları ələ alınmalıdır.

Bu baxımından təqdim edilən məqaləmizdə mövzuyla əlaqəli olaraq terrorizm ilə digər zorakılıq hərəkətləri arasındakı fərqliliklər araşdırılmaqda və dövlətlər, beynəlxalq təşkilatlar və müəlliflər tərəfindən edilmiş təriflər qiymətləndirilməkdədir.

Zorakılıq, qorxu, təhdid, qanundan kənarlılıq kimi faktları xatırladan terror və terrorizm anlayışları fərqli anlayışlardır. Fransızca "terreur", ingiliscə "terror" sözləri ilə ifadə edilən terror sözü latın mənşəli olub "terrere" sözündən törəmişdir(1). XIII əsrdən etibarən fərdi psixoloji bir ruh halı olan qorxu vəziyyətini ifadə edən terror sözü (2) qorxutma, sistemli şəkildə güc istifadə etmə, kimi mənalara gəlməkdədir(3).

Əslində məna etibarilə bir zorakılıq növü olmasına baxmayaraq hər zorakılıq hadisəsi, terror və ya terrorizm deyildir. Terror və terrorizm konseptual olaraq fərqli bir məna və əhəmiyyətə malikdir, zorakılıq terrorizmin həm məqsədi, həm də ön şərti olmaqla birlikdə terrorizmi tamamlayan zorakılıqin "siyasi məqsədli" olmasıdır. Ümumi mənada zorakılıq, siyasi məqsəd daşımayan və ya daşıyan zərərverici hücumların hamısını əhatə edir(4). Terror həm zorakılıq yoluyla yaradılan qorxu mühitini, həm də bu mühiti yaradan zorakılıq hərəkətini ifadə edir(5). Terrorizm isə, uzunmüddətli qorxu və dəhşət vəziyyətini ifadə edən terrordan fərqli olaraq, siyasi məqsədlər üçün mütəşəkkil, sistemli və davamlı terrordan istifadəni üsul olaraq mənimsəyən bir strategiya anlayışıdır(6). Bu vəziyyətdə tez-tez bir-birinin yerinə istifadə edilən terror, terrorizm və terrorist anlayışları arasındakı fərqin təyin edilməsi zərurəti ortaya çıxmaqdadır. Bassiouni terrorizmlə bağlı anlayışların mənasını və əhatəsini tam olaraq bilmədən onun xüsusiyyətlərinin təsnif edilməsinin təhlükəli olduğunu bildirir(7).

Müasir dövrdə terror və terrorizm arasındakı fərq ortadan qalxmış və hər iki anlayış da eyni mənada istifadə edilməyə başlanmışdır. Bunun nəticəsi olaraq, hədəfi cəmiyyətə hakim siyasi quruluşu dəyişdirmək məqsədi ilə müəyyən bir təşkilatlar tərəfindən sistematik olaraq tətbiq olunan zorakılıq və gücdən qeyri-düzgün istifadə edilməsi hərəkətləri terror hərəkətləri və ya qısaca terror ya da terrorizm olaraq adlandırılmaqdadır(8).

Son dərəcə geniş olan terrorizm anlayışının xüsusi xarakterinə və işləyiş formasına, siyasi istiqamətinə və uzun müddətli nəticələrinə, onu yönəldən və əsas verən faktlarla bağlı bütün mübahisələr, prioritetli olaraq anlayışın açıq, tam və aydın bir şəkildə təyin olunmasına bağlıdır(9). Bununla birlikdə terrorizm dəyişən təbiəti, görünüşü və məqsədləri səbəbi ilə açıqlanması və təyin olunması çətin bir anlayış olaraq qarşımıza çıxmaqdadır. Bu səbəblə terrorizm digər cinayətlər kimi açıq, asan və obyektiv bir təsbitə sahib deyildir.

Terrorizmin beynəlxalq bir problem olaraq ortaya çıxması ilə birlikdə dövlətlər bir tərəfdən öz milli hüquqlarında terrorla mübarizə məqsədilə müxtəlif qanuni tənzimləmələr etmişlər, digər tərəfdən də beynəlxalq sahədə bu istiqamətdə müəyyən işlərə başlamışlar(10). Ancaq bu fəaliyyətlərə baxmayaraq terrorizm mövzusunda ortaq bir çərçivə müəyyən edilməmiş və terror, terrorizm və terrorist anlayışları üzərində beynəlxalq ictimaiyyətin hamısı və ya əksəriyyəti tərəfindən qəbul olunmuş ortaq bir tərif müəyyən edilməmiş, dövlətlər öz mənfəətləri istiqamətində müxtəlif fikirlər irəli sürmüşlər. Hətta eyni dövlətin fərqli zaman kəsimləri içərisində dəyişən siyasi maraqlarına bağlı olaraq terrorizm haqqında konseptual yanaşmaların belə dəyişdiyini görmək mümkün olmuşdur. (11) Bu səbəblə terrorizm olduqca geniş bir anlayış halına gəlmiş və tamamilə fərqli və qəsdsiz tədbirlər də terrorizm içində dəyərləndirilməyə başlanmış, terroristin şəxsiyyətini ortaya qoymaq və ya terrorizmi digər güc hərəkətlərindən və əlaqəli cinayətlərdən ayırmaq mövzusunda ciddi bir irəliləmə qeyd edilməmişdir.

Bundan başqa Azərbaycan Respublikasının müstəqil, suveren, demokratik dövlət kimi inkişafı naminə milli təhlükəsizlik siyasətinin və strategiyasının hüquqi əsaslarının yaradılmasına yönəlmiş Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli 712-IIQ nömrəli Qanununda terror təhdidi və ona qarşı səmərəli mübarizə vəzifəsi haqqında konseptual müddəalar öz əksini tapmışdır. Qanunla beynəlxalq terrorçuluq Azərbaycan Respublikasının milli təhlükəsizliyinə əsas təhdidlər kimi nəzərdə tutulmuş, müvafiq

olaraq, beynəlxalq terrorçuluğa və transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması üçün əsas tədbirlər qismində müəyyən edilmişdir(12).

Azərbaycan Respublikası tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən terrorçuluğa qarşı mübarizə sahəsində xarici dövlətlərlə, onların hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə, habelə terrorçuluğa qarşı mübarizə aparan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Terrorçuluğa qarşı mübarizə sahəsində istər universal, istərsə də regional təşkilatlar səviyyəsində əməkdaşlığı gücləndirməklə Azərbaycan indiyədək terrorçuluğa qarşı mühüm beynəlxalq və regional konvensiyalara qoşulmuş, terrorçuluğa, mütəşəkkil cinayətkarlığın digər növlərinə qarşı mübarizəyə dair 13 ikitərəfli saziş, 15 protokol və 2 memorandum imzalamışdır (13).

Azərbaycan Respublikası rəsmi mövqeyi həm də son illər islam və terrorrizm anlayışlarının birgə işlədilməsinə qarşıdır və eyni zamanda yeni təhlükələrin də diqqət mərkəzində saxlanılmasını istəyir. Bununla bağlı olaraq Respublikanın milli təhlükəsizlik naziri öz çıxışlarının birində qeyd etmişdir ki, sözsüz ki, terrorçuluğun nə İslam, nə də heç bir dünyəvi din ilə əlaqəsi yoxdur, əksinə bu həmin dinlərin əsaslarına və prinsiplərinə ziddir. Onları nəzərə alaraq Milli Təhlükəsizlik Nazirliyi digər dövlət strukturları və ictimai təşkilatlar ilə birgə məqsədyönlü profilaktik tədbirlər həyata keçirir. Bu işlərdə qanunun aliliyi prinsipi əsas prinsip olaraq götürülür. Ektremist qüvvələr son dövrlər tərəfdarlar cəlb etmək məqsədilə internetdən və sosial şəbəkələrdən geniş istifadə edirlər. Xüsusilə də beynəlxalq şəbəkələrin informasiya resurslarında Azərbaycan dilli seqmentlərin yaradılması və radikal ideologiya təbliğat materiallarının yerləşdirlməsi müşahidə olunur. İnternet şəbəkələrdən radikal dini baxışların təbliği, terrorçuların öz aralarında sövdələşməsi, partlayıcı maddələrin və qurğuların hazırlanması üsullarının yayılması üçün istifadə bizi və bütün beynəlxalq ictimaiyyəti narahat edir. Kiber cinayətkarlıq ilə mübarizə bütün dünyada yeni sahədir. Bu yönümdə beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və telekommunikasiya şirkətlərinin tam dəstəyi zəruridir(14).

Beləliklə, onu söyləmək lazımdır ki, terror, terrorçu və terrorizm anlayışlarının beynəlxalq təsbitinin müəyyənləşdirilməsi istiqamətində görüləcək işlər hələ çoxdur. Bu sahədə xüsusi ilə beynəlxalq güclərin öz maraqlarını beynəlxalq təhlükəsizlikdən arxa plana çəkmələri lazımdır. Əks halda bu təhlükələr getdikcə güclənəcəkdir. Azərbaycan Respublikasının fəaliyyəti və qanuvericiliyi isə bu mənada tam nümunə rolunu oynaya bilər. Çünki Azərbaycan Respublikası həm terrora məruz qalmış, həm də bu sahədə obyektiv və beynəlxalq təhlükəsizlik maraqlarını önə alan bir ölkədir.

Bütün bunlarla belə istər milli dövlətlər, istərsə də beynəlxalq təşkilatlar səviyyəsində beynəlxalq terrorizm və onun digər formalarının qarşısının alınması istiqamətində bir sıra işlərin görülməsi zəruridir:

a."Beynəlxalq terrorizmi önləmək", "təməl insan haqqlarını terror təhlükəsindən qorumaq" və "terrorla mübarizə aparan dövlət orqanlarının işinin efektivliyinin artırılması" məqsədi ilə qlobal səviyyədə yeni tənzimləyici hüquqi-normativ əsasların hazırlanması qacınılmazdır. Belə ki, bu hüquqi-normativ baza bəzi hallarda müstəqil dövlətlərin və digər beynəlxalq təşkilatların fəaliyyətinin mərkəzləşdirilməsinə səbəb ola bilər. Bir sıra hallarda beynəlxalq terrorizmi təmsil edən təşkilatlar beynəlxalq hüququda və eləcə də milli hüquqi sistemlərdə mövcud olan kolliziyalardan və ziddiyyətlərdən istifadə edirlər. Eyni zamanda, həm də bir sıra beynəlxalq hüquqi aktorlar, xüsusi ilə də qlobal və regional aktorlar terrorizm və müəyyən təşkilatların təsbit edilməsi məsələsində fəaliyyət müstəvisinin qeyri-müəyyənliyindən güclü bir şəkildə istifadə edirlər. Bu da beynəlxalq səviyyədə terrorizm və onun təzahürləri ilə

mübarizədə problemlər yaranır. Müəyyən hüquqi məkanda terrorçu kimi qəbul edilmiş şəxslər və təşkilatlar digər hüquqi məkanlarda sərbəst şəkildə fəaliyyət göstərə bilirlər. Qeyd edilən sərbəstliyin mövcud olması beynəlxalq terrorizmin təqib edilməsi və terrorçuların tutulub zərərsizləşdirilməsinə imkan vermir. Bunu xüsusi ilə böyük dövlətlərin terror təşkilatları siyahılarını tərtib edərkən görmək olur. Beynəlxalq hüquqi məcbur etmənin olmaması səbəbi ilə bu dövlətlər terrorçu təşkilatların siyahısına əlavə və dəyişiklikləri beynəlxalq təhlükəsizlik maraqlarından deyil, öz milli maraqlarından çıxış edərək edirlər. Bütün bunar onu deməyə əsas verir ki, beynəlxalq terrorçuluqla mübarizdədə beynəlxalq hüquqi məcbur etmə prinsiplərinin gücləndirilməsi və onun tətbiqinə şəffaf nəzarətin təmin edilməsi lazımdır.

b.İnsan haqqlarını terrora qarşı qorumaq və terroru önləmək məqsədi ilə hüquqda təsbit edilmiş bir sıra anlayışlar vardır: məsələn, qarşısı alınması mümkün olan bir terror aktını bilib öncədən xəbərdar etməməyə görə məsuliyyət, terrorda istifadə edilə biləcək hərbi biliklərin öyrədilməsinə görə məsuliyyət və terrorun maliyyələşdirilməsinin qarşısının alınmamasına görə məsuliyyət yeni formalaşan cinayət tərkibləridir. Bu aspektlərin milli hüquqi sistemlərdə gücləndirilməsi lazımdır. Belə ki, birbaşa terror fəaliyyətində iştirak etməsə belə, bəzən müəyyən şəxslər və qurumlar onun yayılmasına bu və ya digər şəkildə yardım göstərirlər. Onların fəaliyyəti çox zaman terrorçulara logistik dəstək təmin edir. Həm də terrorçuluğa birbaşa və dolayısı ilə dəstəyin mənfi hallara gətirəcəyinə dair ictimaiyyətin geniş kütlələri arasında hüquqi təbliğat işinin gücləndirilməsi lazımdır. Bunun üçün hətta ictiami yerlərdə və dövlət, qeyri-hökümət təşkilatlarının ofislərində elan və posterlərdən istifadə etmək olar. Bu elan və posterlərdə terrorçuluğun fəsadını əks etdirən statistik məlumatlar və həmçinin terrorçuluqla bağlı qanuni xəbərdarlıqlar etmək olar. Belə bir şəkildə fəaliyyət göstərilməsi terrorçuluqla bağlı olaraq hüquqi maarifləndirmənin aparılması gələcəkdə cəmiyyətin müxtəlif təbəqələrindən terrorçuluğa meylin önlənilməsinə kömək edə bilər. Çox zaman terrorçuluğun insan resurslarının artmasına səbəb də önləyici hüquqi təbliğat işinin zəif təşkili olur. Xüsusi ilə gənclər terrorçuluğun hüquqi olaraq hansı şəkildə cəzalandırılacağından xəbərsiz olur, avantürist idealizmə qapanırlar. Bu da həmin şəxslərin gələcəkdə yerli və beynəlxalq terrorçu təşkilatla tərəfindən fəaliyyətə cəlb edilməsinə səbəb olur. Həmçinin milli hüquqi sistemlərdə terrorizmlə bağlı olan təqib etmə maddələrini insan haqqları kontekstindən çıxmayaraq bir qədər də sərtləşdirmək lazımdır. Bu sahədə ictimai maraqları ayrı-ayrı fərdlərin maraqlarından önə çəkmək dövrümüzün bir zərurətidir.

c.Beynəlxalq terrorun yox etmək istədiyi demokratik hüquqi dövlətlər terrorun təməl qaynaqlarını, səbəblərini, terrorun yayılmasına səbəb olan faktorları ortadan qaldırmaq üçün "yeni bir qlobal cinayətləri təsbit etmə siyasəti"ni inkişaf etdirmək məcburiyyətindədirlər. Qlobal cinayətlərin təsbit edilməsi dedikdə cinayətlərin mahiyyət və əhatəsinə görə differensasiyası nəzərdə tutulur. Bir sıra cinayətlər yerli və lokal təsirə malik olurlar. Lakin bəzi cinayətlər isə qlobal əks səda doğurur və fəsadlarını daha geniş bir müstəvidə hiss etdirirlər. Həmin cinayətlər terrorçu qrupların, şəxslərin və təşkilatların fəaliyyət arsenalında mühüm yer tutur. Bu cinayətlərin kateqoriyalaşdırılması və eləcə də xarakterik təsbitlərinin aparılması əslində beynəlxalq münasibətlər sisteminin bütün aktorlarının marağında olmalıdır. Çünki beynəlxalq cinayətlər hər bir dövlətin ərazisində baş verə bilər, onun əhalisinə, infrastrukturuna zərbə vura bilər. Burada onu da qeyd edək ki, texnologiyaların inkişafı və beynəlxalq internet şəbəkəsinin formalaşması yeni beynəlxalq cinayət formalarının meydana gəlməsinə şərait yaradır. Məsələn, informasiya kommunikasiya texnologiyaları vasitəsi ilə terrorizmin şüuraltı təbliğatının aparılması, gənclərin fəaliyyət məkanı olan müstəvilərdə zorakılığın və zorakılıqin təbliği və s. Bu kimi halların təsbit edilməsi və ona qarşı birgə beynəlxaq mübari-

zənin təşkil edilməsi zərurəti vardır. Əslində qeyd edib sadaladıqlarımız beynəlxalq terrorizm üçün ən güclü bazisləri oluşdurur.

d.Terror təşkilatına üzv cəlb edilməsinin qarşısını almaq lazımdır. Terrorun varlığını davam etdirməsi, terror təşkilatına üzv qazanmasından asılıdır. Terrorçular yeni üzvləri əsasən həyatda itirəcək çox şeyləri olmayan şəxslər arasından seçirlər. Buna görə də terrorçuluğun qarşısının alınmasında dövlətlərin iqtisadi problemləri diqqət mərkəzində saxlamasının böyük rolu vardır.

e.Terrorla mübarizədə terrorun geniş yayıldığı yerlərdə yerli əhalidən təşkil edilmiş drujinalardan gözəl bir şəkildə bəhrələnmək mümkündür. Belə ki, bu yarı hərbiləşdirilmiş və dövlət tərəfindən dəstəklənən qüvvələr terrorla mübarizədə olduqca yaxından iştirak edəcəklər. Çünki terror birbaşa onların özlərinə və əmlaklarına qarşı yönəlmiş təhlükədir.

f.Terrorçuluğa qarşı qlobal mübarizənin mühüm elementlərindən biri də multikulturalizm ideyalarının inkişaf etdirilməsidir. Beynəlxalq münasibətlərin bugünkü inkişaf səviyyəsi baxımından bu məsələ hər zaman diqqət mərkəzində olmalıdır. Azərbaycan multikulturalizm əhval-ruhiyyəsinin hər zaman gündəlikdə saxlanmasına çalışır. Azərbaycanda çoxsaylı beynəlxalq tədbirlər, konfranslar, forumlar keçirilir və multikulturalizmi, onun müsbət təcrübəsi müzakirə edilir. Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı bir ölkədir. Bu, multikulturalizmin uçuruma getməməsinin çox yaxşı nümunəsidir.

g.Terrorçuluğa qarşı təsirli mübarizənin aparılmasında əsas məsələlərdən biri təhsildir. Çünki terror təşkilatları savadsız şəxslərdən istifadə edirlər. Buna görə, təhsil terrorçuluğa qarşı mübarizənin aparılmasında ən böyük meyarlardan biridir.

h.Qlobal ölçüdə terrorist fəaliyyət icra edən quruluşların, böyük maliyyə qaynaqlarına ehtiyac duyduqları da bilinməkdədir. Bu vəziyyət terroristlərə yardım istiqamətli maliyyə qaynaqları axışının təsbit, izlənmə və qarşısının alınmasını əhəmiyyətini ön plana çıxarır. Bu mövzuda alınacaq tədbirlər, bir çox terror fəaliyyətinin reallaşdırılmasına manеə ola bilər. Beynəlxalq hüquqda terrorizmin maliyyələşdirilməsi ilə mübarizə sahəsində müxtəlif vasitələr vardır. Beynəlxalq razılaşmalar bunların ən öndə gələn vasitələridir. Bu razılaşmaların imkanlarının genişləndirilməsi və yenilərinin qəbul edilməsinə ehtiyac vardır. Belə ki, dünya iqtisadiyatının inkişafı, habelə yeni iqtisadi fəaliyyət məkanlarının yaranması beynəlxalq və yerli terrorçuluq fəaliyyətlərinin maliyyələşdirilməsi yeni imkanlar verir. Beynəlxalq köçürmələrin sürətlənməsi və bank sirlərinin güclü olması bir sıra hallarda terrorçuluğun maliyyə mənbələrinin təsbit edilməsinə imkan vermir. Habelə, cəzasızlıq və beynəlxalq nəzarətin olmaması, bir sıra hallarda ikili standartların mövcudluğu ayrı-ayrı dövlətləri belə, terrorizmi maliyyələşdirməyə və bunu öz maraqları çərçivəsində istifadə etməyə təşviq edir. Biz bunu Ermənistanın və dünya erməni diasporunun misalında görə bilərik. Ermənistan Azərbaycan torpaqlarının işğal edilməsində, habelə cəmiyyətimizdə qorxu və təşvişin yaranması üçün terrorçu təşkilatlarını və fəaliyyətlərini maliyyələşdirmişdir. ASALA kimi terrorçu təşkilat demək olar ki, açıq bir şəkildə Ermənistan və erməni diasporu tərəfindən maliyyələşdirilməkdədir. Ramil Səfərovun əfvindən sonra ASALA-nın Azərbaycana qarşı təhdidləri erməni mətbuatında da açıq şəkildə təbliğ edilmişdir. Habelə Ermənistanın birbaşa maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Bakı şəhərində, dəmir və avtomobil yollarında terror aktları törədilmişdir. Lakin ikili standartların mövcudluğu sayəsində Ermənistan heç vaxt terroru maliyyələşdirən, ondan istifadə edən və terrora texniki və logistik dəstək verən dövlətlərin siyahısına salınmamışdır. Bütün bu sadalananlar onu deməyə əsas verir ki, terrorizmin maliyyə qaynaqlarının çökdürülməsi onun qarşının alınmasında və mübarizədə kifayət qədər ciddi və nəzərə alınması

vacib olan amillərdəndir ki, bunu beynəlxalq aktorların hamısı öz fəaliyyətlərində nəzərə almalı və konseptual olaraq önə çəkməlidirlər.

i.Son zamanlar terrorçu fəaliyyətlər zamanı ən çox istismar edilən mövzulardan biri də dindir. Xüsusi ilə, bəzi hallarda islam dini və terror eyniləşdirilir. Belə bir ortamda terror fəaliyyətlərində dinin istismar edilməsinin qarşısının alınması da olduqaca vacibdir. Əslində din dunyəviləşən insanın əlindən tutub Rəbbiylə görüşdürülməsi və təkrar ona axirət bilgisinin verilməsi üçündür.

Bütün çirkinliklərin və dinin terror fəaliyyətlərində istifadə edilməsinin təməlində isə əslində bir inamsızlıq durur. Xüsusilə də axirət məlumatından uzaqlaşan insanlar, daha asan pislik edirlər və günah işlədirlər. Belə olan təqdirdə dindən terrorun aparılmasında istifadə edilməməsi üçün güclü təbliğat və təşviqat şəbəkəsinin qurulmasına ehtiyac vardır. Dini mətnlərdə əslində insanpərvərliyin ön plana çəkilməsi, habelə zorakılığın pislənilməsi diqqət mərkəzinə gətirilməlidir. Qeyd edək ki, son zamanlar bəzi insan və qurumların söz azadlığı şüarı arxasında gizlənərək kütlələrin dini hisslərini təhqir etməsi də dindən terrorda istifadə edilməsi üçün zəmin formalaşdırır. Xüsusi ilə son zamanlar Avropada ortaya çıxmış olan karrikatura qalmaqalı da buna misaldır. Belə olan tədiqdə istər milli dövlətlər, istərsə də beynəlxalq aktorlar dinin həssas bir məsələ olduğunu öz siyasətlərində unutmamalıdırlar. Bu məsələdə, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin çıxışları və fəaliyyəti konseptual bir nümunədir. Azərbaycan Respublikası dövlət başçısı öz çıxışlarında dəfələlərlə bəyan etmişdir ki, islam və terrorçuluğun eyniləşdirilməsi qətiyyən qəbul edilməzdir. Belə eyniləşdirmələrin bir sıra dövlət və mediya qurumları tərəfindən aparılması da terrorçuluğun inkişafına az təsir etmir. Düzgün bir dini siyasət belə halların qarşısını alan amillərdəndir.

**İstifadə edilmiş ədəbiyyat:**

1.LARSCHAN, Bradley: "*Legal Aspects to the Control of Transnational Terrorism: An Overview*", Ohio N. U. L. Rev., Vol. 13, No. 1, s. 123.
2.ZAFER, Hamide: Ceza Hukukunda Terörizm, Beta Yayınları, İstanbul, 1998, s. 9.
3.ŞENER, Esat: Hukuk Sözlüğü, Seçkin Yayınları, Ankara, 2001, s. 795. Türkçe'de uzun yıllar terör kavramı yerine "tedhiş", "terörizm" yerine ise "tedhişçilik" kavramları kullanılmıştır. Ancak günümüzde "terör" ve "terörizm" kavramları artık yaygın bir şekilde görülmektedir.
4.BEŞE, Ertan: Terörizm, Avrupa Birliği ve İnsan Hakları, Seçkin Yayınları, Ankara, 2002, s. 23-24.
5.BAŞEREN, Sertaç H.: "*Terörizm, Kavramsal Bir Değerlendirme ve Hukukî Mücadele Yaklaşımları*", Türkiye Sosyal Araştırmalar Dergisi, sayı 1, 1998, s. 157.
6.BASSIOUNI, M. Cherif: "*International Terrorism*", in International Criminal Law, Second Ed., Vol. I Crimes, Ed. by. M. Cherif Bassıounı, Transnational Publishers, Newyork, 1999, s.771
7.LAQUEUR, Walter: "*Terörizmin Yorumlanması*", Silinen Yüzler Karşısında Terörizm, Ed. Cemal Güzel, Ayraç Yayınevi, Ankara, 2002, s. 95.
8.DUGARD, John: "*International Terrorism: Problems of Definition*", Int'l Aff., Vol. 50, No. 1, 1974, s. 67-70.
9.BAŞEREN, Sertaç H.: "*Uluslararası Hukuk Açısından Terörizm*", Dünyada ve Türkiye'de Terör, Ed. Ali Tarhan, Türkiye Cumhuriyeti Merkez Bankası, 1. Baskı, Ankara, 2002, s. 184.

10.ERICKSON, Richard J.: Legitimate Use of Military Force Against State-Sponsored International Terrorism, Air University Press, 1989, s. 25-26; SETO, Theodore P.: "*The Morality of Terrorism*", Loy. L. A. L. Rev., Vol. 35, 2002, s. 1233-1234.
11.BERES, Louis Rene: "*The Legal Meaning of Terrorism for the Military Commander*", Conn. J. Int'l L., Vol. 11, 1995, (a), s. 3.
12.Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik haqqında" Qanunu. Bakı,2004
13."Terrorçuluğa qarşı beynəlxalq mübarizə üzrə çoxtərəfli qrup (KMT). Milli səviyyədə nailiyyətlər. Azərbaycan. Bakı, 2002.
14.http://www.salamnews.org/az/news/read/64748/eldar-mahmudov-beynelxalq-terror-shebekeleri-ve-muumleyyen-daireler-azerbaycanda-dini-tolerantliq-muumlhitini-pozmaga-ccedilalishir/

**АКИФ МАРИФЛИ**
***Доктор философии по истории***

## ЗАКРЕПЛЕНИИ ПОНЯТИЯ ТЕРРОРИЗМА И ПРИМЕР АЗЕРБАЙДЖАНА

В статье говорится об утверждении понятии терроризма и приводиться пример Азербайджана. Здесь затрагиваются понятии о терроре, террористе и терроризма. Единого международного утверждения нет и это освещается как проблема. В статье также уделяется большое внимание юридическими и практическими достижениям Азербайджана в этой области.

**AKIF MARIFLI**
***Ph.D. in History***

## UNDERSTANDING THE CONCEPT OF TERRORISM AND AZERBAIJAN SAMPLE ON THE ISSUE

The article helps understanding the concept of terrorism and Azerbaijan sample on the issue. The research gives clues into better understanding terror, terror maker and terrorism, also highlights the lack of common international explane of these triple cotegories. The article also describes the juridical and practical achievements of Azerbaijan Republic in this sphere.

***Rəyçilər: t.e.n. A.Göyüşov, t.e.d.M.B.Fətəliyev***
***Bakı Dövlət Universiteti, "Türk xalqları tarixi" kafedrasının 17.10.2013-cü il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (pr. №02).***